**Qurbanlı R**. Taleyinə Xocavənd yazılmış şəhid həkim // Xalq qəzeti. - 2024. - 24 yanvar. - **№ 14**. - S. 8.

**Atası Faiq Abdullayev Qəbələ İncəsənət məktəbində rəssamlıqdan dərs deyirdi. Aqşin isə həm 4 nömrəli tam orta məktəbdə oxuyur, həm də atasından rəssamlıq öyrənirdi. Amma o, Tibb Universitetinə qəbul olundu.**
5 nəfər əlaçı tələbə ilə o Naxçıvana – piyada qoşunlarında xidmətə göndərildi. Bir qədər sonra Xüsusi Təyinatlı Qüvvələrin Tibb Xidmətinin rəisi vəzifəsinə təyin edildi. 44 günlük Qarabağ müharibəsinin ilk günlərində tələbəlik dostları Turqut Xəlilbəylinin və Adil Əfəndiyevin şəhid olması xəbəri Aqşini çox təsirləndirdi. İçindəki qisas hissi daha da gücləndi və özü də gedib döyüşlərə qatıldı.

Anası Dilruba xanım deyir: “Nədənsə, qardaş və bacılarından fərqli olaraq, Aqşinin dünyaya gələndən şəhid olana qədər nəyi vardısa, hamısını yığıb, qoruyub saxlamışam. Bir gün onun həsrəti o qədər içimə doldu ki, məktəb dəftərinə baxdım. Gördüm, gündəlikdə işğal olunmuş rayonların siyahısında Xocavənd rayonun altından qırmızı xətt çəkib. İşə baxın ki, elə orada da əbədiyyətə qovuşub. 26 yaşında baş leytenant olan balamın nəşini Xocavənd torpağını qucaqlamış vəziyyətdə tapıblar”

Aqşin Ənvərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Cəbrayılın, Füzulinin, Qubadlının, Şuşanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edir, onları atəş altından öz çiyinlərində çıxarırdı.

Xocavənd ərazisində gedən gərgin döyüşlərin birində Aqşin Ənvərli 2 əsgərlə yaralı vəziyyətdə mühasirəyə düşür. Kəsilmiş əl barmaqlarının ağrısını sakitləşdirmək üçün özünə iynə vururmuş. Elə bu an snayper gülləsinə tuş gəlir. Yeriyə bilmədiyi üçün digər yaralı yoldaşlarına “Siz gedin, kömək çağırıb məni də götürərsiniz” – deyir. Aqşinin arxasınca gəlsələr də, onu tapa bilmirlər. Xeyli sonra sülhməramlıların nəzarətində olan ərazidən şəhid hərbi həkimin nəşini götürmək mümkün olur.

Onu Qəbələdə, ata-baba yurdu Xırxatala məzarlığında ata babasının yanında torpağa tapşırıblar. Baş daşında doyunca geymədiyi həkim xalatında bədənnüma şəkli vurulub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Aqşin Ənvərli ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub. Qəbələdə adına küçə var. Təhsil aldığı Azərbaycan Tibb Universitetində akt zalı onun adını daşıyır.

Anası Dilruba xanımın dediyinə görə, Aqşinin istədiyi qız olub. Müharibəyə getməzdən əvvəl bacısına deyibmiş ki, anangil Lənkərana elçi gedərmi? Mən də

dedim niyə getmirəm, gedərəm. Yaxşı ki, elə demişəm. Qız evi də elçi gələcək deyə hazırlaşırmış, amma… Aqşinin ölüm xəbəri gəlib”.

Noyabrın 5-də anasına son mesajını yazıb: “Ana, narahat olma, yaxşıyıq”. Sən demə, mühasirədə ağır yaralı vəziyyətdə yazıbmış.

Qəbələnin mərkəzindən çıxıb, üz tuturuq Xırxatala məzarlığına. Burda hər tərəf gül-çiçəyə bürünüb. Məzar daşının üstündən üzümüzə gülümsəyir Aqşin. Atası gözlərini qırpmamağa çalışır, alınmır, sel kimi axır göz yaşları. Nəhayət, özünü toparlayıb deyir ki, fəxr edirəm oğlumla. Təsəllim budur ki, o oğulların uğrunda qurban getdikləri torpaqlar artıq tam azaddır, abadlaşdırılır. İndi onların ruhları Qarabağ göylərində dolaşıb, sevinir.